**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QAZİ BÜRHANƏDDİN "DİVAN"ININ SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Səltənət Eyvaz qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Əlyar Qurbanəli oğlu Səfərli**

filologiya elmləri doktoru, dosent
**Fəridə Əhəd qızı Əzizova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Gülşən Teymur qızı Əliyeva**

filologiya elmləri doktoru, professor
**Vüqar Mikayıl oğlu Əhməd**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nəzakət Fətəli qızı Məmmədli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 - Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
_______________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
_______________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
_______________ **Əlizadə Bayram oğlu Əsgərli**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** "Qazi Bürhanəddin "Divan"ının sənətkarlıq xüsusiyyətləri" adlı dissertasiya işi XIV əsr anadilli ədəbiyyatımızın nümayəndəsi Qazi Bürhanəddin yaradıcılığına və "Divan"ındakı sənətkarlıq xüsusiyyətlərinin aşkarlanmasına həsr edilib. İlk əvvəl bildirək ki, Qazi Bürhanəddinin yaşadığı dönəm – XIII-XIV əsrlər Azərbaycan tarixi, mədəniyyəti və incəsənətinin mürəkkəb bir dövrü olmuşdur. Baş verən siyasi hadisələr mədəniyyətə, ədəbiyyata təsirsiz ötüşməmiş, şairlərimizin bir çoxu əsərlərini fars və ərəb dillərində yazmaq məcburiyyətində qalmışlar. Buna baxmayaraq bu əsrlər ədəbiyyat sahəsində mühüm dəyişikliklərin baş verdiyi və əsaslı dönüş nöqtəsi kimi qiymətləndirilir. Belə ki, bu mərhələ ədəbiyyat tariximizdə, ilk növbədə, anadilli ədəbiyyat nümunələrimizin, qiymətli ədəbi abidələrimizin yaradılması ilə xarakterizə olunur. Təkcə bu xüsusiyyətinə görə bu dövr abidələrimizin aşkara çıxarılması və tədqiqi ən mühüm məsələlərdəndir. Anadilli ədəbiyyatın, eləcə də nümayəndələrinin hər zaman öyrənilməsinə ehtiyac vardır və mühüm əhəmiyyət kəsb edir.

Lakin aradakı zaman məsafəsinin uzunluğu, Azərbaycan sərhədlərinin istilalar, işğallar nəticəsində dəyişməsi, bu səbəbdən bir çox əsərlərin xarici dövlətlərin kitabxanalarına düşməsi və ya it-bat olması ədəbi irsimizin öyrənilməsi zamanı tədqiqatçılar qarşısında müəyyən maneələr yaradır. Buna baxmayaraq hansı yolla olursa, olsun, XIII-XIV əsrlər ədəbiyyatımızın, xüsusilə də, ana dilində yaradılan əsərlərin aşkarlanaraq ölkəmizə gətirilməsi və öyrənilməsi vacibdir və bu sahədə əsaslı işlər görülməlidir.

Beləliklə, XIII-XIV əsrlər anadilli ədəbiyyatın yaranması və inkişafı. yeni janrların yaradılması, epik şeir yaradıcılığının forma və məzmun xüsusiyyətlərinin dəyişməsi ilə yadda qalır. Bu zaman dilimizin varlığı sənətkarların əsərləri ilə özünü sübut edirdi. Ana dilində yazmaq tədricən ənənəyə çevrilirdi. Bu əsərlər yaradılarkən Şərq poetikasının incəlikləri də ərəb, fars dilində olduğu kimi anadilli nümunələrə tətbiq olunur, ərəb dilinin qayda-qanunları əsasında yaradılan əruz vəzni ana dilinə uyğunlaşdırılır, poetik cəhətdən mükəmməl əsərlər ortaya çıxarılırdı. Bu baxımdan Qazi Bürhanəddin

"Divan"ının XIII-XIV əsrlər çərçivəsində öyrənilməsi hər zaman aktualdır.

Dissertasiya işinin aktuallığını aşağıda qeyd etdiyimiz bir sıra amillərlə şərh edə bilərik:

- "Qazi Bürhanəddin "Divan"ının sənətkarlıq xüsusiyyətləri" mövzusu müstəqil şəkildə tədqiqata cəlb edilməmiş, yalnız ayrı-ayrı əsərlərdə qısa formada mövzuya toxunulmuş, sistemli araşdırma aparılmamışdır;

- Qazi Bürhanəddin "Divan"ı ana dilində yazılıb və dövrümüzə gəlib çatan ilk anadilli "Divan"dır. Bu baxımdan "Divan"ın araşdırılması və tədqiqata cəlb edilməsi mühüm amildir;

- "Divan" XIII-XIV əsrlərin məhsuludur. Bu əsrlərdə dilimizin - ədəbi dilimizin hansı səviyyədə inkişafının, eləcə də dilin leksik və qrammatik quruluşuna ərəb, fars dillərinin nə dərəcədə nüfuz etməsinin aşkara çıxarılması daima diqqətdədir. Elə buna görə "Divan"ın öyrənilməsi öz aktuallığını heç bir zaman itirmir;

- Belə əhəmiyyətli bir əsərin müəllifi Qazi Bürhanəddin haqqında məlumat da azdır. "Divan"ın tədqiqi şairin həyatı haqqında müəyyən məlumatların əldə olunmasına kömək edə bilər;

- Məlumdur ki, Qazi Bürhanəddin Şərqi Anadolu ərazisində yaşayıb və fəaliyyət göstərib. Burada gedən mədəni-ədəbi proseslər, sözsüz ki, sənətkarın poeziyasında müəyyən izlər buraxıb. Şairin yaradıcılığının bu aspektdən tədqiq edilməsi məruz qaldığı təsirləri müəyyənləşdirə bilər. Eyni zamanda, Şərqi Anadolu ərazisində Azərbaycan ədəbiyyatının inkişaf meyillərini də aşkara çıxarmaqda yardımçı rol oynaya bilər;

- Şairin yaşadığı dönəm təsəvvüf fəlsəfəsinin geniş vüsət tapdığı bir dövrdür. Bir çox sənətkarlar kimi Qazi Bürhanəddin poeziyasında təsəvvüf fəlsəfəsinin əksinə rast gəlirik. Bu baxımdan tədqiqatçılar arasında müəyyən fikir ayrılığı yaranmışdır. Təsəvvüfün ədəbiyyatımızda ilkin dövrlərdə hansı səviyyədə əks olunması və bunun səbəblərinin öyrənilməsi də mühüm məsələlərdəndir;

- Sənətkarın poeziyası özündən sonra bir çox şairlərin yaradıcılığına güclü şəkildə təsir göstərmişdir. Qazi Bürhanəddin "Divan"ının araşdırılması, xələflərinin üzə çıxarılması ədəbi abidələrimizin hansı köklər üzərində dayandığını aşkar şəkildə deməyə

əsas verər;

- Qazi Bürhanəddin Divan ədəbiyyatına yeni bir janrı, türk şeirini - tuyuğu gətirmişdir. Eləcə də bir sıra poetik fiqur və növlərindən məharətlə istifadə etmişdir. Şairin yaradıcılığında forma və janr xüsusiyyətlərinin, bir sıra poetik fiqur və növlərinin işlənmə səviyyəsinin müəyyənləşdirilməsi Şərq ədəbiyyatının yaradıcılığına təsirlərini, sənətkarlığının hansı imkanlara malik olduğunu deməyə əsas verər.

Bu amillər sübut edir ki, XIV əsr anadilli ədəbiyyatımızın nümayəndəsi Qazi Bürhanəddin yaradıcılığının tədqiqata cəlb olunması hər zaman aktualdır və heç vaxt aktuallığını itirmir.

Mövzunun tədqiqi tarixinə nəzər yetirdikdə aydın olur ki, şairin əsərləri hələ Azərbaycanda öyrənilməmişdən əvvəl Avropada və Türkiyədə araşdırmaya cəlb edilmişdir. Avropa və Rusiya alimlərindən E. Gibb, P.Melioranski, A.Krımski, İ.Stebleva və başqaları tərəfindən tədqiq edilən "Divan" Türkiyədə bir çox alimlərin diqqətini çəkmiş, bunun da nəticəsində artıq XX əsrin əvvəllərindən Türkiyə ədəbiyyatşünaslığında Qazi Bürhanəddin irsinin tədqiqinə başlanmışdır. Bu sahədə F.Köprülünün, S.Şəhabəddinin məqalələri ilkin tədqiqatlardandır. V.M.Kocatürk, N.S.Banarlı, Ə.N.Tərlan, M.Ergin də Q.Bürhanəddin haqqında tədqiqatlar aparmışlar.

Qazi Bürhanəddinin Azərbaycanda araşdırılma tarixinə gəlincə nəzərə çatdırılır ki, bu "Divan" da digər qiymətli əsərlər kimi uzun müddət Azərbaycan ziyalılarının diqqətindən kənarda qalmış, yalnız ilk geniş tədqiqatı Əmin Abid aparmışdır. Lakin şair haqqında ilk məlumat verən Yusif Vəzir Çəmənzəminli olmuşdur. O, Bürhanəddin haqqında: *"Həsənoğludan sonra ən qədim şair Qazi Bürhanəddindir"*[1], - fikrini söyləmişdir. Əmin Abid isə Qazi Bürhanəddini Azərbaycan ədəbiyyatına "gətirmiş" və öz millətinə tanıtmışdı. O, iki məqaləsində Qazi Bürhanəddinin "Divan"ından, xüsusilə də, tuyuğlarından bəhs etmişdir. Tədqiqatçının elmi dəyəri ilə seçilən "Dərəbəylik dövründə Azərbaycan ədəbiyyatı, şair Bürhanəddinin tuyuğları", həmçinin "Türk xalqlarında mani növü və

---

[1] Çəmənzəminli, Y. V. Əsərləri. [3 clddə] / Y.V.Çəmənzəminli. – Bakı: Avrasiya press, – c.3. – 2005. – s. 116.

Azərbaycan bayatılarının xüsusiyyətləri”[2] adlı məqalələri bu sahədə atılan ilk addımdır və mühüm əhəmiyyət kəsb edir. Çünki bu məqalələr sonrakı dövr tədqiqatçıları üçün Q.Bürhanəddin yaradıcılığının araşdırılması və öyrənilməsi yolunda bir “cığır” rolunu oynadı. Sonrakı mərhələdə ədəbiyyat tariximizdə Ə.Səfərli, H.Araslı, M.Quluzadə, A.Rüstəmova, T.Kərimli, M.Vəliyev, A.Qədimalıyeva, İ.Quliyev, A.Əsədov, R.Əliyev, S.Hacı, X.Hümmətova və başqalarının tədqiqatlarında Q.Bürhanəddinin yaradıcılığına müraciət olunmuş və müəyyən araşdırmalar aparılmışdır. Burada xüsusi olaraq qeyd etmək istəyirik ki, Qazi Bürhanəddin irsinin öyrənilməsi və xalqa çatdırılması baxımından Əlyar Səfərlinin xidmətləri əvəzsizdir. İlk dəfə 1976-cı ildə Qazi Bürhanəddin Əhmədin bir neçə qəzəlindən ibarət “Gülşənə gəl, nigara, bülbülü gör” adı altında şeir toplusunu çap etdirən alim, 1988 -ci ildə Qazi Bürhanəddin “Divan”ını bütövlükdə nəşr etdirmişdi. Son dövrlərdə isə şairin yaradıcılığına maraq daha da artmış və bir sıra araşdırmalar aparılmışdır. Ə.Səfərli, M.Vəliyev, A.Əsədov tədqiqatlarında şairin sənətkarlıq məsələlərindən bəhs etsələr də, bu sistemli və tam deyil. Belə ki, “Divan”ın sənətkarlıq xüsusiyyətləri hərtərəfli və geniş şəkildə araşdırmadan kənarda qalmış, bəzi məsələlərə isə, demək olar ki, toxunulmamışdır.

**Tədqiqatın obyekt və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti XIV əsr anadilli ədəbiyyatımızın görkəmli nümayəndəsi Qazi Bürhanəddin “Divan”ıdır. Qazi Bürhanəddin yaradıcılığında ənənəvi poetik fiqurlardan məharətlə və özünəməxsus şəkildə istifadə etmişdir. Dissertasiyada tədqiqatın predmeti kimi şairin mövzu qaynaqları, poetik dili, poetik fiqurların özünəməxsus xüsusiyyətləri, eləcə də divan janrına gətirdiyi yeniliklər, bu yeniliklərin ənənəvi xüsusiyyətlərlə sintezi nəzərdə tutulmuşdur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi Qazi yaradıcılığının XIV əsr Azərbaycan ədəbiyyatı çərçivəsində araşdırılması və özünəməxsus sənətkarlıq xüsusiyyətlərinin aşkara çıxarılmasıdır. Bunun üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

---

[2] Əmin A.. M. “Dərəbəylik dövrü Azərbaycan ədəbiyyatı və şair Bürhanəddinin tuyuqları”, Seçilmiş əsərləri. / A. M. Əmin, tərtib edən və ön sözün müəllifi B. Əhmədov. – Bakı: Şərq-Qərb, – 2007, – s. 120.

– şairin ədəbi-mədəni poetik mühitini onun yaradıcılığı ilə əlaqəli şəkildə araşdırmaq, “Divan”ın ana dilində yazılmasını şərtləndirən amilləri aşkara çıxarmaq;

– şairin mövzu və ideya qaynaqlarını müəyyənləşdirmək, türkdilli poeziya və folklor örnəklərinin yaradıcılığına təsirlərini araşdırmaq;

– Şərqi Anadolu və Şərqi Anadolu mühitində olan sufizmin şairin yaradıcılığında rolunu müəyyənləşdirmək;

– Qazi Bürhanəddin yaradıcılığında ahəng yaradan poetik fiqurlar və onların növlərinin “Divan”ının ahəngdarlığında rolunu müəyyən etmək;

– “Divan”ın məcazlar sistemini müəyyənləşdirmək və poeziyamıza təsirlərini araşdırmaq.

**Tədqiqatın metodları.** Dissertasiya mövzusu araşdırılarkən aşağıda göstərilən elmi metodlara əsaslanılmışdır:

- Tarixilik;
- Sistemlilik;
- tarixi - müqayisəli təhlil;
- sistemli və müqayisəli təhlil;
- ümumiləşdirmə metodu.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Qazi Bürhanəddin “Divan”ını, eləcə də sənətkarlıq xüsusiyyətlərini tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün göstərilən müddəaların müdafiəsi nəzərdə tutulmuşdur:

- Qazi Bürhanəddin yaradıcılığının formalaşmasında ədəbi-mədəni poetik mühitin təsiri;
- Qazi Bürhanəddin yaradıcılığının bu ədəbi-mədəni poetik mühitlə əlaqəsi, əsərin ana dilində yazılmasının səbəbləri və zəruriliyi;
- Şifahi xalq ədəbiyyatı, yazılı ümumtürk poeziyası, dini mənbə və məxəzlərin, eləcə də təsəvvüfi ideyaların Qazi Bürhanəddin yaradıcılığının ideya qaynaqları kimi verilməsinin əsaslandırılması;
- Şairin “Divan”ının sənətkarlıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bədii ifadə vasitələrinin rolu;
- Ritm yaradan vasitə kimi alliterasiya (touzi) və bədii təkrirdən istifadə olunması;
- “Divan”da cinasların rolu, bədii sualın növləri, bədii təzadın

işlənmə səviyyəsi və həmçinin ahəngdarlığın yaranmasında əhəmiyyətliliyi;

- Məcazlar sistemində təşbeh, mübaliğə və istiarələrin yaratdığı obrazlılıq səviyyəsinin aydınlaşdırılması;

- Əsərin türkdilli poeziyaya təsir dairəsinin müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi kimi aşağıda verilənləri göstərmək olar:

- "Qazi Bürhanəddin "Divan"ının sənətkarlıq xüsusiyyətləri" mövzusundakı tədqiqat işi Azərbaycan ədəbiyyatşünaslığında Qazi Bürhanəddinin sənətkarlığı ilə bağlı aparılan ilk geniş araşdırmadır;

- Qazi Bürhanəddinin sənətkarlıq xüsusiyyətlərindən ayrı-ayrı araşdırmalarda bəhs olunsa da, şairin sənətkarlığı sistemli şəkildə ilk dəfə bu dissertasiyada araşdırılır;

- Qazi Bürhanəddin "Divanının ana dilində yazılma səbəblərinin yaşadığı dönəmlə əlaqəli şəkildə üzə çıxarılması ilk dəfə bu dissertasiyada verilir;

- Şairin mövzu və ideya qaynaqlarının müəyyənləşdirilməsi, türkdilli poeziyaya nüfuz dairəsinin, Nəsimi yaradıcılığı ilə ortaqlığının müqayisəli şəkildə aydınlaşdırılması, eləcə də türkdilli poeziyanın Qazi yaradıcılığına təsirinin və s. üzə çıxarılmasında özünü göstərir;

- Şairin yaradıcılığında Anadolu mühitinin rolu, inkişafda olan sufizm məktəbinin sənətkarın ədəbi irsində buraxdığı izləri üzə çıxarmaq, yaradıcılığında sufizm elementlərini müəyyənləşdirmək, ilk dəfə geniş şəkildə sufizmə münasibətinin aşkara çıxarılması da bu dissertasiyanın tədiqiqata cəlb edilərək üzə çıxardığı yeniliklərdəndir;

- Bədii təsvir və ifadə vasitələrinin növlərinin tərkib hissələrinə qədər Qazi yaradıcılığında işlənmə səviyyəsinin ilk dəfə geniş şəkildə müəyyənləşdirilməsi.

Bu elmi yeniliklər dissertasıyanı digər tədqiqatlardan fərqləndirən əsas xüsusiyyətlərdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəaları və nəticələri yalnız aşağıdakı hallarda istifadə və tətbiq oluna bilər.

- Azərbaycan klassik ədəbiyyatının öyrənilməsində;

- Qazi Bürhanəddin "Divan"ının müxtəlif yönlərdən araşdırılmasında;

- Elmi-praktik fəaliyyətdə;
- Bədii təsvir, ifadə vasitələri növlərinin tədqiqi və öyrənilməsində;
- Türkiyə və Azərbaycan ədəbi əlaqələr tarixinin araşdırılmasında.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsində müzakirə edilmişdir.

Tədqiqatın əsas müddəaları dissertantın nəşr edilmiş məqalə və tezislərində, həmçinin respublika və beynəlxalq səviyyəli elmi konfranslarda etdiyi məruzələrin materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və ümumi həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

**Dissertasiya "Giriş" (11.640 şərti işarə), üç fəsil (I fəsil 2 paraqraf, 111.553 şərti işarə, II fəsil 3 paraqraf, 85.920 şərti işarə, III fəsil 3 paraqraf, 74.004 şərti işarə), Nəticə (8.603 şərti işarə) və İstifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.**

Dissertasiyanın ümumi həcmi 291.708 şərti işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın obyekt və predmeti, tədqiqatın metodları dissertasiyanın nəzəri əsası, praktik əhəmiyyəti kimi məsələlərə toxunulmuş, tədqiqatın elmi yeniliyi, müdafiəyə çıxarılan əsas müddəalardan bəhs olunmuşdur.

**"Qazi Bürhanəddin fenomenini ərsəyə gətirən ədəbi-mədəni mühit"** adlı birinci fəsil iki paraqrafdan ibarətdir. **"XIII-XIV yüzilliklərdə Azərbaycanda siyasi, ədəbi–mədəni mühit və Qazi Burhanəddin"** adlı birinci paraqraf, əsasən, Qazi Bürhanəddinin yaşadığı dövrün, eləcə də bütövlükdə XIII-XIV

əsrlərin siyasi, ədəbi və mədəni mühitinin inkişaf səviyyəsindən bəhs edir.

Bildirilir ki, XIII-XIV əsrlər tarixi ictimai siyasi hadisələrin mürəkkəb bir şəkil aldığı, xüsusilə də, Azərbaycanın daha çox monqol hücumlarına məruz qaldığı dövrdür. Monqollarla yanaşı bu zaman kəsimində Azərbaycan, həm də ardıcıl olaraq qıpçaqların, Xarəzmşah Cəlaləddinin, Qızıl ordalıların, Teymurun, Toxtamışın hücumlarına məruz qalmışdır. Monqolların, həmçinin digər xarici qoşunların yürüşləri, feodal çəkişmələri, xalq üsyanları dövlətin sütunlarını zəiflətmişdi. Bir sıra sahələrdə olduğu kimi ədəbi-mədəni inkişafın da ləngiməsinə səbəb olmuşdu. Lakin bir müddət sonra, yəni XIII əsrin II yarısı, XIV əsrin I yarısında ədəbiyyat, incəsənət, mədəniyyət sahəsində gözə çarpacaq dərəcədə irəliləyiş baş verdi. Dissertasiyada, həmçinin musiqi, xəttatlıq, memarlıq, rəssamlıq, xalçaçılıq və tibb sahəsində baş verən inkişaf, tarixçi və filosofların yetişməsi, eləcə də bir çox məktəblərin açılması da qeyd olunur.

XIII-XIV əsrlər həm də anadilli ədəbiyyatın pərvəriş tapdığı bir dövrdür. Məhz bu əsrlərdə anadilli ədəbiyyatın təşəkkül səbəbləri də geniş şəkildə izah olunaraq bir sıra səbəbləri müəyyənləşdirilir:

1. Ərəb-fars hakimiyyətinin zəifləməsi və bu dillərin nüfuz dairəsinin daralması;

2. Hakimiyyətdə olan monqolların türk dilinə üstünlük verməsi. Hətta dövlət sənədlərinin hazırlanmasında türk dilinin əsas götürülməsi.

Bu paraqrafda Şərqi Anadolu ərazisində yaşayan Qazi Bürhanəddinin ana dilində yazmasının səbəblərinə də aydınlıq gətirilmişdir. Mühüm səbəblərdən biri kimi Şərqi Anadolu ərazisində oğuzların çoxluğu və oğuzcanın ədəbi dil rolu oynaması göstərilir. Oğuzların məskunlaşma prosesi və oğuzcanın ədəbi dil kimi istifadəsi N.S.Banarlı və F.Köprülüyə istinadla təsdiqlənir. Belə ki, F.Köprülü həmin dövrdə Şərqi Anadoluda ədəbi dilin məhz Azərbaycan dili olduğunu qeyd edərək yazır: "*Digəri oğuzcadır ki, Anadolu və Rumeli türklərilə Qafqaz, Azərbaycan, İraq və Əlcəzirə türklərinin lisanıdır və müvəxxərən Azəri, Osmanlı namlərilə iki*

*müxtəlif ləhcəyə ayrılmışdır*”[3]. Köprülünün oğuzca dediyi dil məhz Şərq budağına daxil olan Azərbaycan türkcəsidir.

Dissertasiyada bu dövrdə ana dilində yaradılan lirik və epik şeir örnəklərinə nəzər salınaraq, ədəbi yeniliklərdən bəhs olunur.

İkinci paraqraf “**Qazi Bürhanəddin yaradıcılığının mövzu və ideya qaynaqları”** adlanır. Bu paraqrafda Qazi Bürhanəddin “Divan”ının ideya qaynaqları araşdırılmışdır. İlk əvvəl, şairin mövzu və ideya qaynaqları müəyyənləşdirilir. Dlçi alim Ə.M.Dəmirçizadənin şairin ideya istiqamətləri ilə bağlı “*Qazi Bürhanəddinin şeirləri iki mənbə ilə bağlıdır: 1.Ümumxalq folkloru 2..Fars və ərəb ədəbiyyatı”*[4], - fikirlərinə münasibət bildirilir. Göstərilir ki, Q.Bürhanəddinin yaradıcılıq qaynaqları heç də bu iki mənbə ilə məhdudlaşmır. Yuxarıda deyilənlərlə yanaşı, şairin ideya istiqaməti kimi yazılı türk poeziyası, “Qurani-Kərim” surə və ayələri, dini mənbə və məxəzlər, orta əsr təsəvvüf ideyaları müəyyənləşdirilir.

Bu qaynaqlar içərisində şifahi xalq ədəbiyyatının rolu xüsusi vurğulanır və bu şairin milli kökünə bağlılığı ilə əlaqələndirilir. İkinci səbəb kimi, hələ həmin dövrlərdə yazılı ədəbiyyatla şifahi ədəbiyyatın qovuşuq nöqtədə olması və tam ayrılmanın olmadığı dönəm kimi qeyd olunur. Belə nəticəyə gəlinir ki, “Kitabi-Dədə Qorqud” dastanı, atalar sözləri və məsəllər, alqış və qarğışlar, əfsanə və rəvayət, eləcə də nağıl motivləri şairin yaradıcılığında obrazlılığın yaradılmasında daha çox istifadə edilmişdir. Hətta xalq dilində olan “yaxam əldə qalıb”, “gözümün yağı”, “tükü tükdən seçmək” və s. bu kimi ifadələr Qazi Bürhanəddin “Divan”ında: “*Yaxamı heç qomaz əldən, yaxam əlindədir*”, “*Çünki sən işbu gözümün yağısan*”, “*Qılı qıldan çəkərəm”*[5], - formasında işlədilmişdir.

Şairin yaradıcılığında ümumtürk poeziyasının da yeri olduğu

---

[3] Köprülüzadə, F. M. Azəri ədəbiyyatına aid tədqiqlər / F.Köprülüzadə. – Bakı: Sabah, –1996. – 58 s.

[4] Dəmirçizadə, Ə.M. Azərbaycan ədəbi dilinin tarixi: [cildli] / Dəmirçizadə Ə.M, elmi redaktoru, prof., A. Qurbanov. – Bakı: Maarif, – I hissə. – 1979. – s. 144.

[5] Bürhanəddin, Q. Divan / Q.Bürhanəddin, Tərtibçi və ön sözün müəllifi Ə.Q Səfərli.. Redaktor, S. Əlizadə– Bakı: Öndər, – 2005. – s. 42, s. 86, s.92,

qeyd edilir. Bu zaman Yunus Əmrə poeziyasına diqqət yönəldilir. Hər iki şairin yaradıcılığındakı beytlər müqayisəyə cəlb olunur. Son olaraq belə nəticə çıxarılır ki, ümuttürk poeziyası, xüsusilə də, Yunus Əmrə poeziyası Qazi Bürhanəddin üçün mühüm qaynaq rolu oynamışdır. Yunus Əmrə yaradıcılığı təsəvvüfi ideyalarla daha çox şairin yaradıcılığına təsir göstərsə də, həmçinin bəzi poetik fiqurların, bədii xitabların, deyim tərzinin eyniliyi də bunu deməyə əsas verir.

Şairin yaradıcılığında Nizami poeziyasının da özünəməxsus rolu olduğu diqqətə çatdırılır. Bu zaman, hər iki şairin "Sənsiz" rədifli qəzəllərinin bir-birini tamamladığı əsaslardan biri kimi vurğulanır. Bu qənaətə gəlinir ki, Nizami qəhrəmanlarından şair yaradıcılığında poetik vasitə kimi geniş şəkildə yararlanmışdır.

Q.Bürhanəddin yaradıcılığı üçün əsas mənbələrdən biri kimi "Qurani-Kərim" motivlərinin, bir sıra dini mənbə və məxəzlərin də rol oynadığı xüsusi şəkildə nəzərə çatdırılır. "Divan" üçün dini mənbələrin məxəz rolu oynaması dissertasiyada bir-neçə səbəblə bağlanır. Bunlar aşağıdakılardır:

1. Şairin dini təhsil alması və dini dünyagörüşü. Qeyd olunur ki, sənətkarın dini mövzudan bəhs edən "Tercihu't-tavzih" adlı əsəri də var.

2. Dövrün tələbi. Belə ki, Orta əsrlərdə, xüsusilə, XIII-XIV əsrlərdə sənətkarlar dini mövzulara daha çox müraciət edirdilər. Hətta epik şeir yaradıcılığında "Yusif" surəsinin motivləri ən çox müraciət edilənlər sırasında idi.

"Divan"da dinin əksi peyğəmbərlərin, imamların və bir sıra dini şəxsiyyətlərin, eləcə də, "Fatihə", "Yasin", "İxlas", "Maidə" və s. bu kimi surələrin adlarına tez-tez rast gəlinməsi, "Qurani-Kərim"in ayə və surələrindən gətirilən kəlamların çoxluğu, adları qeyd olunmasa da, bəzi ayələrə işarələrin aşkarlanması dini mənbələrin qaynaq rolunu oynamasını bir daha sübut edir. Dissertasiyada dini mənbələrlə bağlı qeyd edilən əsas məsələlərdən biri də, burada işlədilən dini adların çoxluğudur. "Divan"da Hz.Adəm, Hz.Nuh, Hz.İbrahim, Hz.Musa, Hz.Yaqub, Hz.Yusif, Hz.Süleyman, Hz.Davud, Hz.Xızır, Hz.Əyyub kimi peyğəmbərlərin adına rast gəlinməsi və beytlərdə yeri gəldikcə onlarla bağlı "Quran-

Kərim" ayələrinə və hədislərə işarə olunması da bu sübutlar sırasındadır. "Divan"da peyğəmbər adlarına poetik vasitə kimi yanaşılmış, fikirlərin məcazi anlamda daha təsirli ifadəsi zamanı isə müəyyən əhvalatlara obrazlılıq donu geydirilərək işlədilmişdir. Şairin yaradıcılığında Hz.Süleyman əzəmətlilik, vəziri Asəf ağıl, atası Hz.Davud yanıqlı aşiq, Hz.Yusif gözəllik, səbr və dözümlülük, Hz.Yaqub ayrılıq, həsrət simvolu kimi daha çox diqqəti cəlb edir. Peyğəmbərlərin adları ilə bağlı nümunələr şərqşünas alim A.Qasımovanın tədqiqatlarında[6] geniş şərh olunduğundan dissertasiyada bu məsələdən geniş bəhs edilmədiyi də qeyd olunur.

Dini-fəlsəfi mahiyyət kəsb edən təsəvvüf fəlsəfəsi də Qazi Bürhanəddin "Divan"ının ideya istiqamətlərindən biri kimi göstərilir. İlk növbədə, şairin "Divan"ında təsəvvüf fəlsəfəsi varmı? - sualına cavab axtarılır və tədqiqatçıların mülahizələri gözdən keçirilir. Fuad Köprülü, Əli Nihad Tərlan, Duygu Dalbudak, Əbdülqadir Qaraxan, Rıfat Araz, ingilis alimi Vilkinson Gibb, Azərbaycan alimlərindən Əmin Abid, İsmayıl Hikmət, Əlyar Səfərli, Siracəddin Hacı, Xuraman Hümmətova, Məhərrəm Vəliyev və digərlərinin tədqiqatlarında bu məsələyə toxunulduğu qeyd olunur. Məsələyə münasibətdə tədqiqatçılar iki qrupa bölünür. Belə ki, bir qrup ingilis alimi Vilkinson Gibb kimi Qazi Bürhanəddinin qəzəllərini mövzuca dindən kənar qəzəllər kimi qiymətləndirmiş və bildirmişdir ki, "*bu ilk hadisə idi*"[7], Nəticədə, bir qrup tədqiqatçının Qazi yaradıcılığından bəhs edərkən onu daha çox bəşəri sevgini tərənnüm edən həyati bir şair kimi görməsi nəzərə çatdırılır.

Qazi Bürhanəddin haqqında "Dərəbəylik dövründə Azərbaycan ədəbiyyatı və şair Bürhanəddinin tuyuğları" adlı ilk geniş məqalənin müəllifi olan Ə.Abid bu fikirlərə qarşı çıxaraq Qazi Bürhanəddin "Divan"ının təsəvvüfi ideyalardan xali olmadığını aşağıdakı kimi ifadə etmişdir: "*Bilxassə XII əsrdə Mövlanə*

---

[6] Qasımova, A. Ş. XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri / A.Ş. Qasımova, elmi redaktorları, dos. F. Sadıqzadə, f.e.n. S. Şıxıyeva. – Bakı: Bakı Universiteti Nəşriyyatı. – 1998. – 437 s.

[7] Vilkinson Gibb E.J. II bölüm "Dindışı şiirin başlangıcı Taftazani, Kadı Burhaneddin" Osmanlı şiir tarihi A histori of Ottoman poetry Tercümeçi Ali Çavuşoğlu. – Türkiye: Akçağ yayınları. – 2000. – s.143.

*Cəlaləddin Rumi ilə yüksək bir zirvəyə varan "panteizm-idealist" kibi təsəvvüf məsələsinin Bürhanəddin zamanında Azərbaycan, Suriya, Anadolu cəhətlərində çox inkişaf etdiyi nəzərə alınarsa, onun əsərlərinin də bu təsirdən qurtulmayacağı da təbiidir*"[8].

Qazinin yaşadığı dönəmin ədəbi mühitində təsəvvüf düşüncəsinin də ayrıca yeri olduğundan şair bu "*sevgi dənizi"nin içində yerini tapmağa çalışır*"[9], – fikirlərinin müəllifi S.Hacı, Əli Nihad Tərlan və eləcə də A.Qaraxanın şairin yaradıcılığına daha geniş aspektdən yanaşaraq "*məcazi eşqlə həqiqi eşqə ayrı-ayrı yanaşan və hər iki anlamda da açıqlanması mümkün kəlmələr, deyimlər vardır*"[10], – kimi daha doğru bir nəticəyə gəlindiyi nəzərə çatdırılır. Beləliklə, bu tədqiqatçılar ikinci qrupu təşkil edirlər.

Dissertasiyada, həmçinin belə nəticəyə gəlinir ki, tədqiqatçıları çaşdıran məsələlərdən biri də S.Hacı, A.Qaraxan, Ə.N.Tərlanın da qeyd etdiyi kimi, İlahi sevgi ilə bəşəri sevginin Qazi yaradıcılığında qarışıq ifadə olunmasıdır.

Əsərdə Azərbaycan ədəbiyyatşünaslığında Qazi yaradıcılığında təsəvvüf məsələsinin üzərindən keçilməsinin səbəblərindən biri kimi sovet ideologiyası da ön plana çəkilir.

Şairin yaşadığı Anadolu mühitində sufizmin geniş rəvac tapması Qazi Bürhanəddin yaradıcılığında təsəvvüfün işlənməsinin səbəblərindən biri kimi dəyərləndirilir.

Q.Bürhanəddin "Divan"ında, ilk növbədə, sufi terminlərinə geniş yer verilməsi şairin yaradıcılığında sufizmin əks olunmasını təsdiq edən amillərdən biri kimi diqqəti cəlb edir. Burada işlədilən dərviş, bəqa, fəna, ittihad, təsvvüf, sofi, zöhd, əhli-irfan, zahid, arif, vəhdət, tövbə, təcəlla, masiva, ixlas və s. kimi işarə və terminlər bu qəbildəndir. Rəmzi çalarlara malik "zülf", "əğyar", "hüsn", "eşq",

---

[8] Əmin, A. M. "Dərəbəylik dövrü Azərbaycan ədəbiyyatı və şair Bürhanəddinin tuyuqları", Seçilmiş əsərləri. / Əmin A. M, tərtib edən və ön sözün müəllifi B. Əhmədov. – Bakı: Şərq-Qərb, – 2007,- s. 65.

[9] Hacı, S.Q.Qazi Bürhanəddinin yaradıcılığında təsəvvüfün yeri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasınnı Xəbərləri, Ədəbiyyat, dil və incəsənət seriyası,–2001. – № 1-2 – s. 72.

[10] Tarlan, A.N. "Kadı Burhaneddinde tasavvuf" // Türk dili ve edebiyatı dergisi, 1958, – cilt 8, – s. 8-15.

“mey”, “ləl”, “ləb” və s. kimi məcazi anlamda işlədilən ifadələr də bunu təsdiq edir. İlk baxışda hətta “Divan”ı ötəri şəkildə vərəqləyərkən bu terminlərə rast gəlinməsinin özü sübut edir ki, şair sufi görüşləri əks etdirməsə belə, bu sahəyə biganə qalmamış və müəyyən biliklərə sahib olmuşdur. Hətta “Divan”da Həllac Mənsurun adının dönə-dönə hallanması belə şairin iç dünyasının üzə çıxarılması üçün mühüm vasitə kimi dissertasiyada vurğulanmaqdadır.

*Mənsur olur isəm nola bu eşq yolına,*
*Şol zülfü qəd ilə bana çün darü rəsənsin*[11].

“Divan”da təsəvvüfün səviyyəsi məsələsnə gəlincə, Qazi Bürhanəddin haqqında Yunus Əmrə, Şəbüstəri haqqında deyildiyi kimi – “bir təsəvvüf şairidir”, – fikri ifadə oluna bilməz. Araşdırmalar nəticəsində aydın olur ki, Qazi yaradıcılığından bəhs edən tədqiqatçıların böyük əksəriyyəti məhz bu fikrin üzərində dayanmışlar. Tədqiqat nəticəsində Qazi Bürhanəddin “Divan”ının ayrı-ayrı beytlərində dağınıq şəkildə verilmiş vəhdəti-vücud fəlsəfəsi ilə bağlı şairin görüşləri üzə çıxarıldı. Həmin fikirləri sistemləşdirib bir yerə topladıqda məlum oldu ki, vəhdəti-vücud fəlsəfəsinə geniş yer verən şair ayrı-ayrı beytlərdə onun mərhələ və yollarından da bəhs edən müddəaları əks etdirmişdir. Bütün bunlar isə təsəvvüfi görüşlər, sufizm ideyaları Qazi Bürhanəddin “Divan”ının aparıcı ideya istiqamətlərindən biri kimi çıxış etmişdi, – fikirlərini söyləməyə əsas vermişdir.

Ümumilikdə, deyə bilərik ki, XIII-XIV əsrlərin qaynar ədəbi mühitində yetişən şairin yaradıcılığı üçün həm şifahi xalq yaradıcılığı, həm dini mətnlər, həm dini-fəlsəfi mahiyyət daşıyan sufizm, eləcə də bir sıra farsdilli və türkdilli ədəbiyyat nümayəndələrinin əsərləri mühüm qaynaq rolunu oynamışdır.

Bu fəslə aid əldə olunan əsas müddəalar göstərilən elmi

[11] Bürhanəddin, Q. Divan / Q.Bürhanəddin, Tərtibçi və ön sözün müəllifi Ə. Q. Səfərli. Redaktor, Samət Əlizadə– Bakı: Öndər, – 2005.–7 s. 409.

jurnallarda dərc olunmuş məqalələrdə işıqlandırılmışdır[12].

Dissertasiyanın ikinci fəsli **“Qazi Bürhanəddin ”Divan”ında bədii ifadə vasitələri”** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. Ümumi olaraq qeyd edək ki, bu fəsildə “Divan”da istifadə olunan bədii ifadə vasitələri və növləri geniş şəkildə tədqiqata cəlb edilmişdir. Başlanğıc olaraq şairin dilinə ümumi nəzər salınır. Birinci paraqraf **“Ritm yaradan vasitələr – alliteraisya və bədii təkririn rolu”** adlanır. Paraqrafda, ilk növbədə, Qazi Bürhanəddin yaradıcılığında poetik fiqurlardan böyük ustalıq və məharətlə istifadə olunması yüksək qiymətləndirilir. Dissertasiyada qədim dövrdən bu günümüzə qədər bir çox şairlərin əsərlərinin ritmini, musiqililiyini, emosionallığını bir qədər də artırmaq, oxucuda dərin təəssürat yaratmaq və ən başlıcası poetik cəhətdən gözəl, kamil bir əsər ərsəyə gətirmək məqsədilə yeri gəldikcə alliterasiyaya bu və ya digər məqsədlə müraciət etməsi diqqət önünə gətirilir. “Divan”ın araşdırılması göstərir ki, ilk növbədə, səs təkrarlarının yaratdığı ahəngdarlıq çoxluq təşkil edir. Dissertasiyada bununla yanaşı, alliterasiya və ya touzinin qafiyədən fərqi, eləcə də oxşarlığı diqqətə çatdırılır və şərh edilir. Bildirilir ki, alliterasiya qədim türklərdə qafiyənin oynadığı rolu oynamış, sonradan isə funksiyasını poetik

---

[12] 1. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında folklor elementləri” // Şərqşünaslığın aktual problemləri, Respublika elmi konfransın materialları, – Bakı: 14-16 noyabr 2012, – 2012. – s.284-294, 2. Əliyeva, S.E. “Qazi Bürhanəddin “Divan”ında şifahi xalq ədəbiyyatı ənənələri” // Bakı: Ədəbiyyat məcmuəsi, Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, Nizami adına Ədəbiyyat İnstitutunun gənc alimləri üçün xüsusi buraxılış, – 2014. XXV cild, – s.233-239, 3. Əliyeva, S.E. “XIII-XIV əsrlərdə Şərqi Anadolu ərazisində yaranan anadilli ədəbiyyat” // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda keçirilmiş VI beynəlxalq elmi konfransın materialları, – 5-7 may– 2015-ci il, – Bakı, 2 hissədə, I hissə – s. 347-350, 4. Əliyeva, S.E. “Qazi Bürhanəddin yaradıcılığında təsəvvüfi ideyaların bədii ifadə çalarları” // Bakı: Filologiya məsələləri, - № 7,- 2015, s. 395-406. 5. Əliyeva, S.E. XIII-XIV əsrlər Azərbaycan əbiyyatında əənənə və novatorluq // AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Nəsimi-600 “Ey Nəsimi, cahanı tutdu sözün...” mövzusunda AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor R.Azadənin xatirəsinə ithaf olunmuş III beynəlxalq elmi konfransın materialları – Bakı: - 22 iyun, - 2017, - s. 251-256.

fiqur kimi davam etdirmişdir. Alliterasiyanın türklərə məxsusluğu və qədimliyi şifahi xalq ədəbiyyatından gətirilən nümunələrlə təsdiq edilir.

Qazi Bürhanəddin yaradıcılığının folklorla bağlılığını araşdırmaya cəlb edən tədqiqatçı A.Əsədovun: "*Şair ən çox g, c, y, s, n samitlərinin təkrarı ilə yaranan sözlərdən istifadə edərək gözəl ahəngdarlıq yaradır*" [13],– fikrinə münasibət bildirir. "Divan" diqqətlə nəzərdən keçirilərək belə qənaətə gəlinir ki, bu fikirlərin bir qədər dəqiqləşdirilməsinə ehtiyac vardır.

Belə ki, şair əsərində alliterasiya yaradarkən, demək olar ki, dilimizə məxsus bütün samitlərdən; "d", "c", "ç", "f" , "g" , "h", "l" , "m", "n", "s", "t" , "y", "v", "x", "r", "q", "b", "ş", "k", "z"- dən məharətlə istifadə etmişdir. Burada yalnız "ğ", "p", "j" samitləri istisnalıq təşkil edir. Dissertasiyada Qazi yaradıcılığında touzi sənətinin yaradılmasında samitlərin qeyri-fəallıq göstərməsinin səbəbləri araşdırılır və aşğıdakı nəticəyə gəlinir. "*Müşahidələr XIII-XVI əsrlər yazılı mənbələrində aşağıdakı samitlərin fonoloji normativliyə malik olduğunu qeyd etməyə əsas verir. a) cingilitili samitlər: d, c, g, y, v, q, b, z, ğ, b) kar samitlər: p, ç, f, h, s, t, x, ş, k, c) sonorlar: m, n, r, l, n (sağır nun)*"[14]. Göründüyü kimi, "j" samiti bu normativlikdə əksini tapmamışdı. Beləliklə, Qazi Bürhanəddinin dövründə "j" samiti dildə işləklik qazanmamışdı və həmin səsin, nəinki alliterasiya yaratmaması, hətta o səslə olan sözlərin azlıq təşkil etməsi bununla bağlı idi. "Ğ" samitinin alliterasiya yaradarkən istifadə olunmaması ilə bağlı onu deyə bilərik ki, "*Azərbaycan dilinə xas olan sözlərin əvvəlində bu səs işlənmir. Dilimizin əsas lüğət fondunun diqqətlə araşdırılması nəticəsində məlum olur ki, ilk səsi ğ ilə başlayan azərbaycanca söz dilimizdə yoxdur*"[15] və görünür, bu səsdən də istifadə olunmaması bu səbəblə sıx bağlıdır. "P" samitinin alliterasiyalaşmada iştirak etməməsi isə,

---

[13] Əsədov, A. Qazi Bürhanəddin və folklor: / (fil.f.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya) / –Bakı, 2010. – s. 104.

[14] Xudiyev, N.. Azərbaycan ədəbi dili tarixi / N.Xudiyev. – Ankara: – {n.y), – 1997. - s. 136.

[15] Mirzəzadə, H. Azərbaycan dilinin tarixi qrammatikası / /H. Mirzəzadə. - Bakı: - Azərbaycan Universiteti Nəşriyyatı, – 1990. – s. 21.

çox güman ki, bu səsdə ritmikliyin o qədər də uğurlu olmaması ilə əlaqədardır. Bundan əlavə, istifadə olunan samitlərin alliterasiyalaşması isə fəallığına görə fərqli xarakter daşıyır. Yəni "d", "c", "y", "q", "g", "s", "b", "ş", "z" "l", "n" samitləri "ç", "f", "h", "m", "t" , "v", "x", "r", "k", samitlərinə görə alliterasiya yaradarkən daha fəaldır.

Tədqiqatın nəticəsi olaraq qeyd edilir ki, alliterasiyadan "Divan"da üç məqamda – qəzəl, beyt və misra daxilində olmaqla sadə və mürəkkəb formasından geniş şəkildə istifadə olunmuşdur. Alliterasiya, ilk növbədə, ritmi gücləndirmə, davamlı ahəng yaratma funksiyasını yerinə yetirməklə bərabər, həmçinin səs təqlidi və mənzərə lövhələrinin, hadisənin, bütövlükdə təbiətdə olanların fonetik təsəvvürünü vermiş, bəzən də emosional əhvali-ruhiyyə yaratmağa xidmət etmişdir. Eyni zamanda "Divan"da alliterasiyadan fasiləsiz, bəzən də fasiləli şəkildə istifadə olunmuşdur.

Dissertasiyada səs təkrarları ilə yanaşı təkrirlər də ritm yaradan vasitə kimi qeyd edilmişdir. Dinamikliyi, musiqililiyi gücləndirən, ritmikliyi artıran bu bədii ifadə vasitəsinin növlərinə poetik fiqurlardan yaradıcılığında məharətlə yararlanan XIV əsr şairi Qazi Bürhanəddin "Divan"ında da rast gəlinməkdədir. Q.Bürhanəddin, demək olar ki, təkririn bütün növlərindən: anafora, epifora, qoşalaşma və ya geminasiya, reduplikasiya, epimonadan və s. tez-tez istifadə edərək qəzəllərinin emosianallığını, ritmikliyini daha da yüksəltmiş, bununla da fikrinin daha axıcı, ahəngdar və təsirli ifadəsinə nail olmuşdur.

Nəticə olaraq qeyd edilir ki, leksik-sintaktik fiqur kimi çıxış edən təkrirlər təkcə misra, beyt və ya bütövlükdə qəzəl daxilində ritmikliyi, ahəngdarlığı artırmaq, təmin etməklə kifayətlənmir, həm də ekspressivlik, dərin bir məna çaları, məna tutumu daşıyaraq semantik-üslubi funksiyanı da yerinə yetirir. Məhz bu səbəbdən də Qazi Bürhanəddin yaradcılığında geniş istifadə olunan təkrir növlərini dərindən araşdırdıqda onların həm də müəyyən bir məna tutumuna malik olduğu ortaya çıxır**.**

Dissertasiyanın ikinci fəslinin ikinci paraqrafı "**Bədii təzad, cinas, və poetik funksiyası"** adlanır. Bu paraqrafda şairin

yaradıcılığında işlədilən bədii təzad və cinas poetik fiquru geniş şəkildə araşdırılır.

Əsərdə, ilk növbədə, tədqiqatlarında Qazi yaradıcılığına bu və ya digər şəkildə yer verən ədəbiyyatşünas alimlərdən Ə.Səfərli, M.Vəliyev, Y.Babayev, A.Əsədov və b. sənətkarların yaradıcılığında bədii təzadlardan az da olsa, bəhs olunduğu qeyd edilir. Eyni zamanda bildirilir ki, aparılan tədqiqatlarda "Divan"dakı bədii təzadlar struktur daxilində bir sistem olaraq araşdırılmamışdır.

Dissertasiyada təzad və antiteza terminlərinə aydınlıq gətirilir. Belə nəticəyə gəlinir ki, fərqliliyə baxmayaraq qarşılaşdırma - əks anlayışı fərqli yollarla olsa da, hamısı bir məqsədə - fikrin oxucuya daha poetik və daha qabarıq çatdırılmasına xidmət edir.

Qazi qəzəllərində ağlamaq-gülmək, uyumaq-oyanmaq, ölmək-dirilmək, dost-düşmən, yar-əğyar, su-od, gecə-gündüz, sübh-şam, halal-haram, ağ-qara, dərd-dərman, vüsal-hicran və s. söz və ifadələr məhz sadə-mütləq təzadlar kimi çıxış edərək poetikliyin yaranmasını şərtləndirir. Bu təzadlar isə iki qrupa ayırılır:

1) Antonim - əksmənalı sözlərdən yaradılmış sadə və ya mütləq təzadlar;

2) Yalnız mətn daxilində əksmənalılıq ifadə edən və ya daha dəqiq desək, qarşı qarşıya gətirilən sözlərin yaratdığı təzadlar.

*Gözündəndür könül məcruhü xəstə,*
*Nə çarə, çünki ləlindir həkimi*[16].

"Göz" xəstələndirən, dərd verən, "ləl" isə şəfa verən, həkimə bənzədilmişdir. Bu məqamda da "göz" və "ləl" sözləri mətn daxilində bədii təzad mövqeyində çıxış etmişdir.

Sənətkarın bədii təzadın müqabilə, mütləq və nisbi, əhvali-ruhiyyə, morfoloji, oksimoron və s. növlərindən məharətlə faydalandığı və gözəl sənətkarlıq nümunələri yaratmağa nail olduğu da nümunələrlə şərh olunur.

"Divan"da cinasların da özünəməxsus yeri vardır. Dissertasi-

---

[16] Bürhanəddin, Q. "Divan" (Tərtibçi və ön sözün müəllifi Ə. Səfərli) /Q.Bürhanəddin. - Bakı::- Öndər,- 2005. - s. 135..

yada ilkin olaraq cinas termini şərh edilir, təcnis termini ilə eyniliyi məsələsinə toxunulur. Bildirilir ki, eyni mənanı ifadə etməsinə baxmayaraq bir çox tədqiqatçılar "təcnis" və "cinas" terminlərini ayırmış və təcnisi bir şeir şəkli, yaxud da şeir janrı kimi, cinası isə ayrıca olaraq müxtəlif məqamlarda bədii üslubi funksiyanı yerinə yetirən poetik fiqur kimi qəbul etmişlər. Hal-hazırda, xüsusilə də, aşıq poeziyasında artıq təcnis xüsusi bir şeir janrı və ya şeir şəkli kimi qəbul edilir və özünəməxsus növləri də qeyd olunmaqdadır**.**

Dissertasiyada bu terminlə bağlı bir sıra fikir və mülahizələr nəzərdən keçirilir, sonda folklorşünas alim E.Məmmədlinin fikri əsas götürülərək təcnis və cinas termininin, həqiqətən, eyni mənanı ifadə etdiyi vurğulanır. E. Məmmədlinin "*Təcnis və ya cinas şeir janrı, şeir şəkli deyildir. O, şeirin qafiyə quruluşunu tamamlayan, ona forma və məzmun əlvanlığı gətirən, beyt və bəndləri müəyyən çalarlarla zənginləşdirən poetik bir kompanentdir, bədii-üslubi sistemin tərkib hissəsidir*"[17], – fikirləri ilə deyilənlərə yekun vurulur.

Beləliklə, kiçik və ümumi araşdırmanın yekunu olaraq aydın olur ki, əvvəlki dövrlərdə, yəni klassik nəzəriyyə əsərlərində cinas və təcnis eyni anlamda işlədilsə də, sonralar bir ayrılma olmuş, nəticədə daha çox aşıq poeziyasından bəhs edərkən təcnis, hətta özünün növləri olan ayrıca, müstəqil bir şeir şəkli kimi qəbul edilmişdir. Lakin aşıq poeziyasında təcnis ayrıca bir şeir şəkli kimi qeyd olunsa da, hər iki termin eyni mənanı ifadə edir. Nəhayət, yekun olaraq nəzərə çatdırılır ki, hal-hazırda müasir nəzəriyyə ilə bağlı bir çox əsərlərdə təcnis yuxarıda qeyd edildiyi kimi, xüsusi bir şeir şəkli kimi qəbul olunmuş, cinas dedikdə isə müəyyən beytlərdə omonimlik yaradan sözlərin birgə işlənməsi nəzərdə tutulmuşdur.

Cinasların Azərbaycan ədəbiyyatında işlənmə tarixinə gəlincə, bunun qədimliyi və milliliyi folklor nümunələrimizlə sübut olunur.

Qazi Bürhanəddin "Divan"ında cinaslrardan istifadəyə gəlincə, bunun tam, müstəvfa, mürəkkəb, artırmalı, mükərrər və s. kimi bir çox növlərinə rast gəlindiyi və çoxluq təşkil etdiyi bildirilir.

---

[17] Məmmədli, E. H.. Təcnis sənətkarlığı / E. H.Məmmədli, elmi redaktoru M.Qasımlı. – Bakı: Nafta-press, –1998. – **s.** 5.

Beləliklə, Qazi Bürhanəddin "Divan"ında cinasları araşdırdıqda bir daha aydın olur ki, cinaslara böyük üstünlük verilmiş və cinaslar şairin yaradıcılığında müxtəlif funksiyaların yerinə yetirilməsində mühüm rol oynayaraq daha çox ikili mövqedən çıxış etmişdir:

1. Poetik fiqur kimi üslubi - poetik funksiya.
2. Qafiyə yaradan vasitə kimi.

Poetik-üslubi cəhətdən cinaslar şeiri forma və məzmunca zənginləşdirərək estetik görünüşünü təmin etməklə yanaşı, ahəngdarlığın yaradılmasında da mühüm rol oynamışdır.

İkinci fəslin üçüncü paraqrafı **"Divan"da bədii sual"** adlanır. Sənətkarın yaradıcılığında bədii sualın işlənmə məqamları araşdıılrmazdan əvvəl qeyd olunur ki, bədii sualdan fikrin təsir gücünün, eyni zamanda da emosionallığın, ekspressivliyin artırılması məqsədilə istifadə olunmasına hələ Qazi Bürhanəddin yaradıcılığından, eləcə də yazılı ədəbiyyat nümunələrindən çox-çox əvvəl folklor nümunələrində - "Kitabi Dədə Qorqud" dastanılarında qarşılaşılır. "Bamsı Beyrək" boyundan parça təqdim olunur. Bamsı Beyrəyin əsirlikdən qayıdıb Banuçiçəyin Yalıncıq oğlu ilə toyunda Banuçiçəyə verdiyi suallar:

*Alan sabah, xan qızı, yerindən durmadınmı?*
*Boz ayğırın belinə binmədinmi?*
*Sənin evin üzərinə saqin keyik yıqmadınmı?*
*Sən məni yanına çağırmadınmı?*[18]

Məqsəd suala cavab almaq deyil. Əsas məqsəd fikrin, baş verən hadisənin təsdiqinin təsir gücünün artırılmasıdır. Altun üzüyün nişanlarını sayaraq öz fikirlərini daha dəqiq şəkildə çatdırmaq və özünü məhz bu yolla tanıtmaqdır. Keçmişi bu yolla yada salmaqdır. Məhz bu məqsədlə dastanda bədii sualın növlərinə tez-tez müraciət edilmişdir. Bu, bədii sualdan bir priyom kimi hələ Qazidən əvvəl istifadə olunmasının qədimliyini göstərən mühüm

[18] Kitabi-Dədə Qorqud (əsl və sadələşdirilmiş mətnlər). / tərt. ed. f.e.d., prof., əməkdar elm xadimi S. Əlizadə. nəşrə hazırlayan və redaktoru AMEA-nın müxbir üzvü, f.e.d, professor, əməkdar elm xadimi T. Hacıyev –Bakı: "Öndərı", –2004. – s. 75.

amil kimi diqqəti cəlb edir. Həmçinin təbiətcə çılğın və emosional xarakterə malik olan qədim türklərin emosionallıq yaratmaqda əvəzzsiz rola malik olan bədii suala tez-tez müraciət etmələri onların xarakterini də açır və sözsüz ki, səbəblərdən biri də elə budur, – fikrilə ümumiləşmə aparılır.

Dissertasiyada bədii sualla bağlı aparılan tədqiqatlara nəzər salınır və bunların iki aspektdə formalaşdığı üzə çıxarılır:

1. Bədii sualın ifadə vasitələri və yaratdığı məna çalarlılığı.
2. Bədii sualın daha çox da klassik ədəbiyyatda işlədilən təcahülül-arif, ritorik sual, istifhəm və s. növləri tədqiqata cəlb edilib araşdırılır.

Qazi Bürhanəddin yaradıcılığında bədii sualın işlənmə dairəsinə nəzər salınaraq "Divan"da bədii sualın, əsasən, iki formada işləndiyi qəbul edilir.

1. Qəzəl tam şəkildə sual cümlələri əsasında qurulur. Şairin "Nə qılam?" "Dəgülmidir?", "Verələrmi?", "Qanı?" və s. rədifli qəzəlləri bu qəbildəndir. Ümumiyyətlə, "Divan"da 40-a qədər qəzəl bu formada qurulmuşdur ki, bu da şairin məharətini və bədii sualın əhəmiyyətli mövqeyini bir daha sübut edir.
2. Qəzəl daxilində tək-tək beytlər sual əsasında qurulur.

Qazi Bürhanədddin yaradıcılığının tədqiqatçılarından İ. Quliyev: "*şairin dilində intonasiya ilə qurulan sual cümləri aparıcı deyildir*", –[19]söyləsə də, hər halda şairin "Divan"ında bədii sual yaratma, əsasən, üç vasitə ilə: sual ədatları, sual əvəzlikləri, sual intonasiyası ilə həyata keçirildiyi qənaətinə gəlinir.

Dissertasiyada bədii sual növləri kimi ritorik sual, istifhəm və təcahülül-arif Qazi Bürhanəddin yaradıcılığına tətbiq edilərək araşdırılır və nümunələrlə izah edilir, yaratdığı poetiklik qeyd olunur.

Bu fəslə aid əldə olunan əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə işıqlandırılmışdır[20].

---

[19] Quliyev, İ. E., Qazi Bürhanəddin "Divan"ının sintaktik quruluşu / İ.E.Quliyev, elmi redaktor, f.e.d. Q.Kazımov, –Bakı: "Elm və Təhsil, – 2010. – s.55.

[20] 1. Əliyeva, S.E. Qazi Burhanəddin "Divan"ında səs və söz gözəlliyi // "Müasir şərqşünaslığın aktual problemləri" Beynəlxalq elmi konfrans, – Bakı: 1-2 iyun

Dissertasiyanın üçüncü fəsli **““Divan”da bədii təsvir vasitələri”** adlanır. Bu fəsildə şairin yaradıcılığında müraciət olunan bədii təsvir vasitələri geniş şəkildə araşdırmaya cəlb edilmişdir. Fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf **“Təşbehlər sistemi və istiarələrin yaratdığı obrazlılıq”** adlanır. Q.Bürhanəddin poeziyasında çox işlədilən bədii təsvir vasitələri içərisində təşbehlərin rolu əvəzsizdir və xüsusi yeri vardır.

Beləliklə, Qazi yaradıcılığında təşbehlərin araşdırılması, onlara struktur daxilində ümumi baxış bir daha göstərdi ki, bənzətmələr yaradılarkən dini şəxsiyyət adlarına: Musa, Adəm, Xızır, Süleyman, Həsən, Əli, Hüseyn və b. əfsanəvi şəxslərə: Leyli və Məcnun, Vamiq və Əzra, Bəhram, Rüstəm, təbiətlə bağlı - bitki adlarına: yasəmən, gül, qönçə, sərv, nərgiz, tuba, sünbül, reyhan və s., çaylara: Nil, Fərat, Ceyhun və s., şəhərlərə: Bağdad, Təbriz və s., ərəb əlifbasındakı hərflərə: “dal”, “nun”, “mim”, “əlif”, “sad” və s., qiymətli daşlara: ləl, gövhər, yaqut və s., səma cisimlərinə: ay, günəş, ulduz, starə, zöhrə və s., eləcə də bir çox məfhumlara: çıraq, şam və s. müraciət edilərək onlara rəmzi məna çaları verilmişdir. Şairin təşbehlərinin zənginliyi və rəngarəngliyi də diqqətdən qaçmır. Belə ki, gözəli vəsf edərkən sənətkar onun bədən üzvlərini bir məfhumla təşbeh etnəklə qalmamış, fərqli məfhumlarla müqayisə etmişdir. Gözəlin üzü günəşə, aya, gülə, kəbəyə və s.; qaşları kamana, yaya, tərəziyə, qabi-qövseynə, mehraba; boyu əlif hərfinə, sərvə, tubaya; ağzı mim hərfinə, qönçəyə; göz yaşları dürrə,

---

2011, – 2011, – s.282-283. 2. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında alliterasiya // –Bakı: Filologiya məsələləri, – 2012. №4, – s.285-294. 3. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında cinaslar // Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: 27-28 iyun 2013, – 2013. – s.164 , 4. Əliyeva, S.E Qazi Bürhanəddin qəzəllərində bədii təkrir // Gənc türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Müasir türkoloji tədqiqlatlar: problem və perspektivlər” mövzusunda Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 21-22 noyabr, - 2016, - s.152-153.. 5. Əliyeva, S.E Qazi Bürhanəddin qəzəllərində bədii təkrir və növləri // - Bakı: Filologiya məsələləri, - 2017. № 7, – s. 334-342, 6. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında cinas fiquru və onun üslubi poetik funksiyası // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2019. № 2, –s. 20-29.

lələ, şəraba; gözü eyn hərfinə, nərgizə, bəhrama, babil quşlarına və s. bənzədilmişdir. Bu təşbehlərin rəngarəngliyi, bənzətmə çalarının zənginliyi insanı heyrətə gətirir. Şair isə təkcə bununla kifayətlənmir. Eyni zamanda sənətkarın poeziyasında digər məcaz növləri ilə müqayisədə daha çox işlədilən təşbehlər, mübaliğələr, eləcə də bədii təzadlarla birgə işlədilərək daha qüvvətli və poetik cəhətdən mükəmməl beytlərin meydana çıxmasına səbəb olmuşdur. Bu isə diqqəti cəlb etmiş və tədqiqata cəlb edilmişdir. Bu bir daha şairin yaradıcılıq imkanlarının və axtarışlarının dərinliyini sübut edən amillərdən biri kimi çıxış edir. Şairin yaardıcılığında müfəssəl və ya geniş, təfzil və ya üstünlük bildirən təşbeh, mükəmməl təşbeh, “ləğvetmə” təşbehi, təsabih adlanan təşbeh, təşbehi-məşruq adı ilə tanınan şərti təşbehlər və s. növlərinə rast gəlinmişdir ki, bütün bunlar dissertasiyada ətraflı şəkildə tədqiq edilmişdir.

Q.Bürhanəddin yaradıcılığının diqqətlə izlənilməsi və araşdırılması aşkara çıxartdı ki, şair həm müəyyən duyğularını, fikirlərini, hissi vəziyyətini ifadə edərkən, həm də gözəli təsvir edərkən təşbehlərə daha çox müraciət etmişdir.

Təşbehlər kimi istiarələr də Q.Bürhanəddin yaradıcılığında çoxluq təşkil edir. Sənətkarın yaradıcılığında istiarələrə müxtəlif baxımdan: müəyyən bədii lövhələr yaradarkən, gözəli təsvir edərkən, öz hisslərini, həyacanlarını ifadə edərkən müraciət edilmiş, müəyyən əşya və predmetlər arasında bənzərlik müəyyən edilərək bol-bol faydalanılmışdır. Şairin qəzəllərində aşağıdakı istiarələrin bu baxımdan çoxluq təşkil etdiyi də aşkar edilmişdir.

Ağız – mim, ləl; Göz yaşı – dürr, inci; Diş – inci, sədəf; Dodaq – ləl; Göz - nərgiz, badam; Boy – sərv; Gözəl – büt, ay, mah, günəş, yasəmən, gül; Aşiq – şam və s.

Məlum olur ki, müəllif, həm də qiymətli daşlardan, səma cisimləri və coğrafi adlardan, əfsanəvi şəxs adlarından, bitki və heyvanlardan, müxtəlif əşyalardan və s. bacarıqla istiarə kimi istifadə etmişdir.

Burada istiarələr əsasən iki formada özünü göstərmişdir:

1) Hər hansı bir məfhumun xüsusiyyətindən istifadə olunur.
2) Cansız əşyalar şəxsləndirilir.

Qazi yaradıcılığında istiarələr həm də sufi-simvolik məna da

daşıyır və bu tip istiarələr də çoxluq təşkil edir. Beləliklə, Qazi poeziyası istiarələr və eləcə də onların məzmun zənginliyi ilə fərqlənir. Səma cisimləri, bitki adları, tarixi şəxsiyyətlər, qiymətli daş-qaşlar, əşyalar, heyvanların və s. şairin yaradıcılığında istiarələrin yaradılmasında mühüm rol oynadığı vurğulanmışdır.

Üçüncü fəslin ikinci paraqrafı **"Mübaliğə və növləri"** adlanır. Qazi Bürhanəddin "Divan"ında çox istifadə edilən bədii təsvir vasitələrindən biri də mübaliğədir. Bəzən mübaliğə ilə yanaşı, hiperbola terminindən də istifadə olunur. Mübaliğələr iki böyük qrupa ayrılmışdır. 1. Hiperbola – şişirtmə 2. Litota - kiçiltmə

Bu fikirlərin doğruluğunun sübutu üçün bir sıra əsərlərə nəzər salınır və göstərilir ki, ədəbiyyatşünas alimlərdən Ə.Fəhmi, M.Əliyev, Ə.Səfərli, S.İbrahimov, M.C.Paşayev, Ə.Nəcəfzadə, M.Vəliyev, M.Quliyeva, V.Əliyev, İ.Pala da mübaliğəınin kiçiltmə və böyütmə anlayışlarını özündə birləşdirməsini əsərlərində qeyd etmişlər.

Dissertasiyada mübaliğənin növləri məsələsinə də nəzər salınır. Mərhum alim, klassik ədəbiyyatın bilicilərindən olan Ə.Səfərlinin mübaliğənin üç – *təbliğ, iğraq və qüluvv* növlərinin olduğunu bəyan etdiyi diqqətə çatdırılır [21].

Tədqiqatçılardan M.Rəfili, A.Hacıyev, S.İbrahimov, V.Əliyev, Ə.Dəmirçizadə, M.C.Paşayev, Z.Əsgərli, M.Vəliyevin mübaliğədən bəhs edərkən, ümumiyyətlə, növ məsələsinə toxunmadığı və tədqiqatlarını ümumi istiqanmətdə apardıqları, xüsusi olaraq, qeyd edilir.

Bu nəticəyə gəlinir ki, mübaliğənin (hiperbolanın) bir çox növ çalarları yaransa da, sənətlkarların yaradıcılığında bu üç növ daha çox işlədildiyindən və digər növlər üçün əsas və ya başlanğıc olduğundan, əsasən, bunlara nəzər salınmış, ana xətt kimi qeyd edilmişdir. Dissertasiyada göstərilən prinsip əsas tutularaq mübaliğələrin araşdırılması bu istiqamətdə aparılmışdır.

Nəhayət, Qazi Bürhanəddin yaradıcılığında mübaliğələrin araşdırılması zamanı məlum olur ki, şair mübaliğələrdən geniş

---

[21] Səfərli, Ə.Q. Divan ədəbiyyatı sözlüyü / Ə.Q.Səfərli, redaktorlar, f.e.d., prof. X.Yusifli, f.ü.f.d. G.Səfərli. – Bakı: "Elm və Təhsil", –2015. –. s. 461.

şəkildə istifadə etmiş, daha çox da göz yaşlarını, ayrılıq acısını, yarın saçlarını, gözlərini, kirpiklərini, qaşlarını, dodaqlarını, sevgidən duyduğu həyəcanları mübaliğəli şəkildə vermişdir. Bu zaman səma cisimlərindən: Ay, Günəş, məkan və çay adlarından: Fərat, Nil, Ceyhun, Bağdad, Təbriz və s. adi vasitələrdən: ox, yay, kaman, mancanaq daşları, tir, fəvvarə və s. kimi məfhumlardan - sözlərdən məharətlə yararlanmışdır.

Sənətkar, eləcə də mübaliğənin qüluvv, təbliğ, iğraq kimi hiperbola formalarından və litotadan da yaradıcılığında bol-bol faydalanmışdır. Xüsusilə, Qazi yaradıcılığında mübaliğələrin yaradılmasında təşbehlərin mühüm rolu olmuşdur və mübaliğəni, ümumiyyətlə, təşbehsiz təsəvvür etmək də mümkün deyildir.

Litota klassik poeziyada, ümumiyyətlə, yazılı ədəbiyyatda hiperbola kimi geniş işlədilməmişdir. Buna baxmayaraq, XIV əsrdə sözün obrazlı yozumuna böyük qiymət verən, sözdən məharətlə fikirlərinin obrazlı ifadəsinə çalışan Qazi yaradıcılığında litotalara da geniş yer verilmişdir. Şair, adətən, əlamətlərlə litota yaratmağa üstünlük vermişdir. Qazi yaradıcılığında daha çox bədən üzvlərinidən bəhs edərkən litota yaradıldığının şahidi oluruq. Şairin beli və bədəni qıla (tükə], ağızı "nöqtə" və "mim"ə bənzətməsi buna nümunə ola bilər. Belin və bədənin incəliyinin qıla bənzədilməsi çox işlədildiyindən daha üstün mövqedədir, bu bir çox beytlərdə özünü göstərir. Aşiq bəzən özünün dərddən incəldiyini bildirmək üçün, bəzən də gözəllik rəmzi olaraq belin qıla bənzədilməsindən istifadə edir.

Qeyd edək ki, klassik poeziyada ağızın "nöqtə" və "mim"ə bəzədilməsinə tez-tez rast gəlinir ki, burada şair gözəlin ağzını "mim" və "nöqtə" ilə müqayisə etmişdir. Ağızın kiçikliyi gözəllik rəmzidir. Qazi də yaradıcılığında bu cür litotalara yer vermişdir.

Üçüncü fəslin üçüncü paraqrafı **"Divan"ın türkdilli poeziyaya təsiri"** adlanır. Bu paraqrafda kökləri şifahi xalq ədəbiyyatı, yazılı türk ədəbiyyatı, eləcə də dini-təsəvvüfi ideyalara söykənən və onların üzərində boy atıb ucalan Qazi yaradıcılığının zamanında, eləcə də özündən sonra bir çox şairlərin yaradıcılığına təkan verdiyi, onlarla gözəl əsərlərin yaranmasında mühüm rol oynadığı xüsusi qeyd olunur. Onun örnək kimi götürülməsi

səbəblərindən birincisi kimi, "Divan"ını ana dilində yazması göstərilir ki, bu da onun bir sənətkar kimi atdığı hələlik ilk və ən gözəl addımlardan biridir. Bu artıq ana dilində yazıb yaratmağa böyük üstünlük verən XIII-XIV əsr şairləri üçün açılan yeni bir çığır, yeni bir yol demək idi.

Təsadüfi deyil ki, türk ədəbiyyatında Baqi, fəlsəfi şeirin banisi İ. Nəsimi, daha sonra Ə.Hidayət, M.Füzuli, M.P.Vaqif və b. bu kimi şairləri öz sehri ilə ovsunlayan Qazi şeirinin şüası onların yaradıcılığına müxtəlif şəkildə: həm forma əlamətləri, həm mövzu və ideyası ilə, həm də dil və üslubu, sənətkarlıq xüsusiyyətləri ilə sirayət etmişdir.

Dissertasiyada Qazi yaradıcılığı ilə bağlı araşdırmaya ən az cəlb edilən mövzulardan birinin məhz xələflər olduğu, xüsusi olaraq, diqqətə çatdırılır. Bir sıra tədqiqatçıların əsərlərinə nəzər salınır və ümumiləşdirilərək qeyd edilir ki, doğrudur, bu sırada dəyərli alimlərimiz Ə.Səfərli, İ. Hikmət, R.Azadə, M.Quluzadə, B.Həsənli, A. Paşayeva və b. Qazinin Nəsimi, Həbibi, Ə. Hidayət, Füzuli, Nəvai yaradıcılığına təsirini birmənalı olaraq qeyd etmiş, öz fikir və mülahizələrini söyləmişlər. Bununla belə ədəbiyyatşünaslıqda mövzu müstəqil olaraq araşdırılmamışdır.

Qazi Bürhanəddin yaradıcılığının izlərinə, ilk növbədə, könül oxşayan, dərin mənalı, gözəl əsərləri ilə bu gün də yaşayan fəlsəfi şeirin banisi İ.Nəsimi yaradıcılığında rast gəlinməsi dissertasiyada ön plana çəkilmişdir. Eyni zamanda məlum olur ki, Nəsimi və Qazi arasındakı bağlılıq və ya Qazinin Nəsimi yaradıcılığına təsiri, demək olar ki, bu günə qədər əhatəli şəkildə araşdırılmamışdır. Bu istiqamətdə alim B.Həsənlinin, S.Mehdiyevanın dilçilik yönümdə apardığı araşdırmalar azlıq təşkil edir və yetərli deyil.

İlk öncə, Nəsimi və Qazini birləşdirən səbəblərdən biri kimi müəyyən bir vaxtda onların eyni ərazidə yaşaması göstərilir. Belə ki, Nəiminin edamından sonra onun ardıcılları, o cümlədən də Nəsimi təqiblərdən qurtarmaq üçün Azərbaycanı tərk etmiş, bir müddət Türkiyə - Anadolu ərazisində yaşamışdır. Şübhəsiz ki, Anadolu mühiti ilə sıx bağlanan Nəsimi yaradıcılığı nüfuz qazandığı kimi, Anadolu mühiti, mədəniyyəti də şairin yaradıcılığına öz təsirini göstərmişdir. Qazi Bürhanəddin

yaradıcılığı da bu mədəniyyətin - burada yaranan anadilli Azərbaycan ədəbiyyatının bir parçası idi və bu Nəsimi yaradıcılığına təsirsiz ötüşməmişdir. Digər bir səbəb isə onların eyni əsrdə yaşaması, eləcə də XIV əsrdə artıq Anadoluda yaranıb formalaşan sufi mühitinin təsirləri də az deyildi. Bütün bu səbəblər, nəticədə, iki şair arasında bir sıra oxşarlıqların yaranmasına səbəb olmuşdur. Adətən, bənzərliklərin meydana çıxması janr, mövzu və ideya qaynaqları, eləcə də sənətkarlıq xüsusiyyətləri arasında müqayisələr aparılmaqla aydınlaşdırılır ki, dissertasiyada da, ilk növbədə, Nəsimi yaradıcılığının janr baxımından Qazidən faydalandığı vurğulanır.

Belə ki, türk şeiri olan tuyuğu ilk dəfə Divan ədəbiyyatına məhz Q. Bürhanəddin gətirmişdir. Tuyuğun yazılı ədəbiyyatda ilk dəfə məhz Qazi tərəfindən işlədilməsi bir faktdır və bu artıq bir başlanğıc idi. Qazi Bürhanəddin yaradıcılığında tuyuğlar ilkin formasında özünü göstərir. İ.Nəsimi isə Qazidən sonra tuyuğ janrından istifadə edərək onu öz istedad və məharəti ilə daha da təkmilləşdirmiş, daha mükəmməl formada təqdim etmişdir.

Xələflərinin yaradıcılığına təsirdən, ənənələrin əxz olunmasından bəhs edərkən mövzu və ideya bağlılığını da diqqətdən qaçırmaq olmaz. Bu, hətta ön planda dayanır. Bu baxımdan Qazi və Nəsimi yaradıcılığında da ortaq nöqtələr, daha doğrusu, ortaq mövzu və ideya qaynaqları diqqəti cəlb edir və bənzərliyin yaranmasında mühüm rol oynayır. Xüsusilə, bu yöndə “Qurani-Kərim” motivlərindən eyni şəkildə istifadə, təsəvvüfi ideyaların eyni məqsədlə təbliği və şeirlərində əks olunması daha çox nəzərə çarpır.

Digər tərəfdən, bəzən ənənəvi, bəzən də yeni yaradılmış eyni epitet, mübaliğə, təşbehlərə müraciət etmələri, eləcə də ilk dəfə Qazi yaradıcılığında istifadə olunan müəyyən simvolik ifadələrin İ.Nəsimi yaradıcılığında da özünü göstərməsi, bəzi qəzəllərinin məzmunca bir birini xatırlatması, eyni rədiflərdən, eyni cinaslardan istifadə Qazi Bürhanəddin yaradıcılığının İ.Nəsimi yaradıcılığı üçün əvəzsiz bir qaynaq rolu oynadığını, onun yaradıcılığına əhəmiiyyətli dərəcədə təsir göstərdiyini bir daha ortaya qoyur. Eləcə də Qazi qəzəllərində rast gəldiyimiz cinasın müxtəlif, o cümlədən də daha

çox mürəkkəb və müzdəvec növləri Nəsimi qəzəllərində də eynilə və eyni məqamda işlədilmişdir. Qazi qəzəllərində işlədilən bir çox rədiflərin Nəsimi yaradıcılığında görünməsi bu yaxınlığı şərtləndirən əlamətlərdən biri kimi meydana çıxır. Bunlar dissertasiyada öz həllini tapan məsələlərdəndir.

Bu fəslə aid əldə olunan əsas müddəalar elmi jurnallarda dərc olunmuş məqalələrdə işıqlandırılmışdır[22].

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

1. Qazi Bürhanəddin "Divan"ı tədqiqatçılar tərəfindən müəyyən zamanlarda tədqiqata cəlb edilmişdir. Lakin bu tədqiqatlarda şairin sənətkarlıq xüsusiyyətləri hərtərəfli və sistemli, eləcə də müstəqil şəkildə araşdırmaya cəlb edilməmişdir. Dissertasiyada ilk dəfə şairin sənətkarlıq xüsusiyyətləri sistemli şəkildə araşdırılmışdır;

2. Qazi Bürhanəddinin ana dilində yazmasını zəruri edən amillər vardır ki, Anadolu ərazisində oğuzcanın ədəbi dil rolu

---

[22] 1. Əliyeva S.E Qazi Bürhanəddin və Imadəddin Nəsimi yaradıcılığında ortaq nöqtələr // BDU Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş "Şərqşnaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransının materialları" Bakı: - 27-28 dekabr 2017, - s. 155-157**.** 2.Əliyeva S.E Həllac Mənsur Qazi Bürhanəddin və İmadəddin Nəsimi yaradıcılığında // – Bakı: AMEA "Filologiya və sənətşünaslıq", - 2019, № 1,- s. 64-67. 3.Алийева, Салтанат Поэтическая фигура «Мубалига» гипербола) (образной системе «Диван»-а Гази Бурханаддина (Qazi Bürhanəddin Divan"ının bədii təsvir sistemində mübaliğə) // - Алматы: Казахский национальный педагогический университет имени Абая, Вестник, Серия «Филологические науки», - 2019, № 1(67), - с 113-120., 4. Əliyeva S.E Qazi Bürhanəddin və İmadəddin Nəsimi yaradıcılığı // Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi dəyərlərin təbliği fondu "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfransın materialları- Bakı:- 17 aprel - 2019, s. 165-179., 5. Əliyeva, S.E. Qazi Bürhanəddin şeirlərinin dil və üslubunun Nəsimi poeziyasında əksi // Bakı Dövlət Universiteti, Sivas Universiteti "Beynəlxalq Türk dünyası mədəniyyət səfirləri: Nəsimi simpozyumu", Nesimi kitabı, – Sivas: – 25 oktyabr – 2019, s.437-444., 6. Əliyeva, S.E. Qazi Bürhanəddin yaradıcılığının təsəvvüfi ideya qaynaqları və İmadəddin Nəsimi yaradıcılığına təsiri // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2019. № 4, –s. 26-34.

oynaması, xalq ədəbiyyatına bağlılıq, monqolların türk dilinə üstünlük verməsi, ərəb-fars dilinin nüfuz dairəsinin azalması bu amillərdəndir;

3. Şifahi xalq ədəbiyyatı, dini mənbə və məxəzlər, türkdilli və farsdilli poeziya, təsəvvüfi ideyaların şairin ideya və mövzu qaynaqları kimi çıxış etməsinin müəyyən səbəblərlə bağlılığı üzə çıxarılmışdır. a) şairin xalq ədəbiyyatına böyük önəm verməsi, b) dini təhsili və dini dünyagörüşü, c) yaşadığı ərazidə XIII-XIV əsrlərdə təsəvvüfün geniş şəkildə yayılması, d) dərin savada malik olması, müasirləri və sələfləri ilə tanışlığı;

4. "Divan"da poetikanın incəliklərinə yüksək səviyyədə əməl edilmişdir. Şairin alliterasiyalardan, söz təkrarlarından istifadəsi bunun göstəricisi kimi çıxış edir;

5. Qazi Bürhanəddin poeziyasında xüsusi önəm verilən fiqurlardan cinaslar böyük üstünlüyə malikdir. Cinasların bir çox formalarından məharətlə istifadə olunmuş, bu zamn cinaslar həm qafiyə yaradan vasitə kimi, həm də poetik fiqur kimi ifadəliliyin yaradılmasında mühüm rol oynamışdır;

6. Şairin yaradıcılığında obrazlılığın yaradılmasında təşbeh və istiarələr də xüsusi çəkiyə malik olmuşdur;

7. Qazi Bürhanəddin yaradıcılığı özündən sonra bir çox şairlərin yaradıcılığına əsaslı təsir göstərmişdir. Nəsimi yaradıcılığı ilə bağlılıq daha çox diqqəti cəlb edir. İ. Nəsimi Q. Bürhanəddindən məzmun, forma, poetik fiqurların istifadəsi zamanı geniş şəkildə bəhrələnmişdir.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**


1. Əliyeva, S.E. Azərbaycanda Qazi Bürhanəddinin ilk tədqiqatçısı – Əmin Abid // – Bakı: Filologiya məsələləri, – 2008. №5, – s.304-311.
2. Əliyeva, S.E. Qazi Burhanəddin "Divan"ında səs və söz gözəlliyi // "Müasir şərqşünaslığın aktual problemləri", Beynəlxalq elmi konfrans, – Bakı: 1-2 iyun, – 2011, – s.282-283.

3. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında alliterasiya // – Bakı: Filologiya məsələləri, – 2012. №4, – s.285-294.
4. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında folklor elementləri // Şərqşünaslığın aktual problemləri, Respublika elmi konfransın materialları, – Bakı: 14-16 noyabr, – 2012, – s.284-294.
5. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında cinaslar // Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: 27-28 iyun, – 2013, – s.164.
6. Əliyeva, S.E. Anadilli ədəbiyyatın öyrənilməsində və təbliğində Əlyar Səfərlinin rolu – Bakı: Filologiya məsələləri, – 2013. №7, – s.330-334.
7. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında şifahi xalq ədəbiyyatı ənənələri // – Bakı: Ədəbiyyat məcmuəsi, Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, Nizami adına Ədəbiyyat İnstitutunun gənc alimləri üçün xüsusi buraxılış, – 2014. XXV cild, – s.233-239.
8. Əliyeva, S.E. “XIII-XIV əsrlərdə Şərqi Anadolu ərazisində yaranan anadilli ədəbiyyat” // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri”mövzusunda keçirilmiş VI beynəlxalq elmi konfransın materialları, Bakı: 5-7 may, – 2015, – 2 hissədə, I hissə, – s.347-350.
9. Алиева, Салтанат Традиции и новаторство в литературе Азербайджана XIII-XIV вв. Международной научно-практической конференции литература и художественная культура тюркских народов в контексте восток-запад,. – Казань: 14-17 октявря, – 2015, – с.43-50.
10. Əliyeva, S.E. Qazi Bürhanəddin yaradıcılığında təsəvvüfi ideyaların bədii ifadə çalarları // – Bakı: Filologiya məsələləri,– 2015. № 7, – s.395-406.
11. Əliyeva, S.E. Qazi Bürhanəddin qəzəllərində bədii təkrir // Gənc türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Müasir türkoloji tədqiqlatlar: problem və

perspektivlər” mövzusunda Beynəlxalq elmi konfransının materialları, – Bakı: – 21-22 noyabr, – 2016, – s.152-153.
12. Əliyeva, S.E. XIII-XIV əsrlər Azərbaycan ədəbiyyatında əənənə və novatorluq // AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Nəsimi-600 “Ey Nəsimi, cahanı tutdu sözün...” mövzusunda AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor R.Azadənin xatirəsinə ithaf olunmuş III beynəlxalq elmi konfransın materialları – Bakı: – 22 iyun, – 2017. – s. 251-256.
13. Əliyeva. S.E. Qazi Bürhanəddin qəzəllərində bədii təkrir və növləri // - Bakı: Filologiya məsələləri, – 2017. № 7, – s. 334-342
14. Əliyeva, S.E. Qazi Bürhanəddin qəzəllərində təsəvvüfi ideyalar və vəhdəti-vücud fəlsəfəsi // AMEA–nın həqiqi üzvü Z.Bünyadovun xatirəsinə həsr olunmuş “Müasir şərqşünaslığın aktual problemləri” (“Z.Bünyadov qiraətləri”) mövzusunda beynəlxalq elmi konfrans,– Bakı: – 16-17 oktyabr, – 2017. – s. 42-43.
15. Əliyeva, S.E. Qazi Bürhanəddin və İmadəddin Nəsimi yaradıcılığında ortaq nöqtələr // BDU Şərqşünaslıq fakültəsinin 95 illik yubileyinə həsr olunmuş “Şərqşnaslığın aktual problemləri” mövzusunda respublika elmi konfransının materialları” – Bakı: – 27-28 dekabr 2017, – s. 155-157.
16. Əliyeva, S.E. Həllac Mənsur Qazi Bürhanəddin və İmadəddin Nəsimi yaradıcılığında // – Bakı: AMEA “Filologiya və sənətşünaslıq”, – 2019. № 1, – s.64-67.
17. Алиева, Салтанат Поэтическая фигура «Мубалига» (гипербола) образной системе «Диван»-а Гази Бурханаддина (Qazi Bürhanəddin Divan”ının bədii təsvir sistemində mübaliğə) // - Алматы: Казахский национальный педагогический университет имени Абая, Вестник, Серия «Филологические науки», - 2019, № 1(67), – с. 113-120.
18. Əliyeva, S.E. Qazi Bürhanəddin “Divan”ında cinas fiquru və onun üslubi poetik funksiyası // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2019. № 2, –s. 20-29.
19. Əliyeva, S.E. Qazi Bürhanəddin və İmadəddin Nəsimi

yaradıcılığı // Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu, Mənəvi dəyərlərin təbliği fondu "Mənəvi dəyərlər sistemində Nəsimi fenomeni" mövzusunda konfransın materialları, – Bakı: – 17 aprel, – 2019, – s.165-179.
20. Əliyeva, S.E. Qazi Bürhanəddin şeirlərinin dil və üslubunun Nəsimi poeziyasında əksi // Bakı Dövlət Universiteti, Sivas Universiteti "Beynəlxalq Türk dünyası mədəniyyət səfirləri: Nəsimi simpozyumu", Nesimi kitabı, – Sivas: – 25 oktyabr,– 2019, – s.437-444.
21. Əliyeva, S.E. Qazi Bürhanəddin yaradıcılığının təsəvvüfi ideya qaynaqları və İmadəddin Nəsimi yaradıcılığına təsiri // – Bakı: Bakı Universitetinin Xəbərləri, – 2019. № 4, –s. 26-34.

Dissertasiyanın müdafiəsi _____ __________ _______ il tarixində saat _________ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat institutunun Elektron zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat institutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ __________ _______ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 29.03.2021

Kağızın formatı: 60x84 $^{1}/_{16}$

Həcm: 45998

Tiraj: 100